# ŞƏHƏRİN TARİXİ İNKİŞAF MƏRHƏLƏLƏRİNDƏ BƏDİİ MEMARLIQ TƏRTİBATI

**Məmmədova Səbinə Sahib qızı-** müəllim, dizayn kafedrası, AzMİU, s.mamedoffa@inbox.ru

**Annotasiya.** Məqalədə şəhərin müasir dizaynı ilə birlikdə keçdiyi inkişaf tarixi və yolları nəzərdən keçirilir. Bakı şəhərinin köhnə stildən yeni stilə keçid dövrünün araşdırılması həll yolları axtarılır. Keçmişdən bizə xəbər verən tikililər arasında kiçik qala şəhəri olan İçəri Şəhəri xüsusi qeyd etmək olar. Burada Qız qalası, Şirvan Şahlar saray kompleksini, Qoşa Qala Qapılar və s. aiddir.
**Açar sözlər:** dizayn, müasir dizayn, dizaynın inkişaf tarixi, şəhər mühiti, tarixi abidələr

# ARCHITECTURAL DESIGN IN THE HISTORICAL DEVELOPMENT STAGES OF THE CITY

**Mammedova Sabina Sahib-** lecturer, department of Design, Construction college under AzUAC, S.mamedoffa@inbox.ru

**Abstract.** Art architecture at the stages of the historical development of the city. Looking for ways to study the transition of the city of Baku from the old style to the new style.Among buildings informing us of the past,we can especially mention the Old city,a small fortress.Them belongs to Maiden's Tower, Shirvanshakh Palace,Double tower doors and so on.
**Key words:** design, modern design, design development history, urban environment, historical monuments

Məlumdur ki, cəmiyyətin maddi mədəniyyəti həcm- məkan tikililərində minilliklər boyu öz bədii ifdəliyini cilalamış və dövrümüzə kimi gəlib çıxmışdır. Bu baxımdan tarixi obyektlərin araşdırılması göstərir ki, mühitin qavranılmasında özünü göstərən informativ qanunauyğunluqlar, memarlıq formaları ornamentlər bu gün üçündə aktual olaraq qalır. Bu xüsusiyyətləri özündə əks etdirən və tarixi tikililəri ilə bütün dünyanın diqqətini cəlb edən bir çox ölkələri qeyd edə bilərik. Misir, Mesopatamiya, Roma, Yunanıstan və s. inkişaf yolu keçərək möhtəşəm memarlıq nümunələrinə görə tarixə adlarını yazdıran bu ölkələr qədim dövr mədəniyyətini, inancları, məişət və gündəlik tələbləri əks etdirən rəsimlərlə freskolarla tarixin açılmayan səhifələrinə bizi ekskursiya etməyə vadar edir [1].

Bu ölkələr arasında Azərbaycan da özünə məxsus tikililəri ilə memarlıq mühitinin formalaşmasına güclü əmək sərf edən ölkələr arasındadır. Beləki Azərbaycanda ilk memarlıq mühitinin formalaşmasına qayalarda rast gəlinmişdir. Müxtəlif rayonlarda o cümlədən Bakı şəhərində inşa olunan müdafiyyə tikililəri, qalalar, dini tikililər hal hazırda da şəhərin müasir park və meydanları fonunda tarixi yaşadır. Keçmişdən bizə xəbər verən tikililər arasında kiçik qala şəhəri olan İçəri Şəhəri xüsusi qeyd etmək olar. Burada Qız qalası, Şirvan Şahlar saray kompleksini, Qoşa Qala Qapılar və s. aiddir [2]. Xüsusi qeyd etmək isdərdim ki, memarlıq mühitini təşkil edən tikililəri bəzəyən və formanı vurğulamaqdaköməklik edən əhəng daşından istifadə olunurdu.

Bakı 1806-cı ildə Rus imperyasının tərkibinə daxil olduğu vaxtdan etibarən qala şəhərindən kənarda inkişaf edib boyüməyə başladı. Sosial–iqtisadi şərait bu dövr tikililərin bədii ifdəliyinə təsirsiz ötüşmədi.Bu baxımdan tarixi obyektlərin araşdırılması göstərir ki, mühitin qavranılmasında özünü göstərən informativ qanunauyğunluqlar, memarlıq formaları ornamentlər bu gün üçündə aktual olaraq qalır. Bu xüsusiyyətləri özündə əks etdirən və tarixi tikililəri ilə bütün dünyanın diqqətin cəlb edən bir çox ölkələri qeyd edə bilərik. Misir, Mesopatamiya, Roma, Yunanıstan və s .

İnkişaf yolu keçərək möhtəşəm memarlıq nümunələrinə görə tarixə adlarını yazdıran bu ölkələr qədim dövr mədəniyyətini, inancları, məişət və gündəlik tələbləri əks etdirən rəsimlərlə

freskolarla tarixin açılmayan səhifələrinə bizi ekskursiya etməyə vadar edir. Bu ölkələr arasında Azərbaycan özünə məxsus tikililəri ilə memarlıq mühitinin formalaşmasına güclü əmək sərf edən ölkələr arasındadır. Beləki Azərbaycanda ilk memarlıq mühitinin formalaşmasına qayalarda rast gəlinmişdir. Müxtəlif rayonlarda o cümlədən Bakı şəhərində inşa olunan müdafiyyə tikililəri, qalalar, dini tikililər hal hazırda da şəhərin müasir park və meydanları fonunda tarixi yaşadır. Beləliklə Azərbaycanın o qədər də böyük əraziyə malik olmayan Abşeron yarımadası Xəzər dənizi ətrafında ən gözəl coğrafi mövqedə yerləşir. Uzun illər müharibələrlə yanaşı siyasi sarsıntılara məruz qalmasına baxmayaraq inkişaf etmiş, lakin baş verən prosseslər memarlığın inkişafına öz təsirini göstərmişdir. Aparılan çoxsaylı arxeoloji qazıntılar nəticəsində Bakı və Bakı ətrafi qəsəbələrin mövcud olduğu sübut edilmişdir. Lakin Bakının şəhər kimi formalaşdığı hələ dəqiq müəyyənləşdirilməmişdir. E.ə V-VI əsrlərə aid mənbələrdə Bakı Baqavan, Atəşi Baquvin adlanıb. IX əsr mənbələrinə istinadən ərəb tarixçiləri əsərlərində Baku, Bakuh, Bakuyə kimi adlandırıldığına təsadüf edilir. Bundan başqa Avropa və Fars mənbələrində dəfələrlə Vaqa, Vasi və Badukubə kimi adlandırılmışdır [3].

Sara xanım Aşurbəylinin fikrincə Bakının bir şəhər kimi formalaşması təxminən X-əsrə aiddir. Bəzi mənbələrdə isə onun VI-əsrdə yarandığı qeyd olunur. Qeyd etmək lazımdır ki, uzun illər səyahət etmiş şair, alim, yazışı və səyyarlar Bakının təsvirinə geniş yer ayırmışlar. Bu alimlərdən biri 1683-cü ildə Evelbert Kempfer Bakı haqqında təsəvvürün belə qələmə almışdır. “Qayaların üstündə əzəmətli gözəl bir saray ucalır və bu saray Şah saray adlanır”. Saray qapısına üzbəüz oturmuş iki şir şəkli həkk olunmuşdur. Onların başları üstündə başqa bir heyvan şəklidə var. Biraz dəvə başına bənzəyir deyə qeyd etmişdir . Bakıda uzun müddət qalmış Zeynalabdin Şirvanı öz mülahizəsində deyirdi “Bakı çox küləkli şəhərdi. Bakını Badkubə adlandırırlar. Bu şəhər o qədər küləklidir ki, həyətləri və damları qırla örtürlər. Binaların özülünü yonulmuş daşdan qoyurlar deyə qeyd edirdi Bundan başqa görkəmli alim professor 1842-ci ildə İ.Berez belə yazırdı möhtəşəm qala iki cərgədə mühafizəyə alınıb [3,4]. Cənub qərbdən möhtəşəm qaladan təpələr görünür. Bundan başqa Berez qeyd edirdi: Bakı qalası türklərin Dağıstandakı hökmdarlığından öncəki dövrlərə aiddir. Alimlərin Bakı haqqında fərqli-fərqli qeydləri dövrümüzə kimi gəlib çarmışdır. Bir çox mənbələrdə Bakının mərkəzində karvansarayların, sarayların olduğu haqqında yazılara rast gəlinir. Belə ki, Abbasqulu ağa Bakıxanovun qızlarından biri Tuğba xanım Cəfərqulu xanın oğluna ərə getmiş və köhnə Bakıda indiki (Əli Bayramov) Təbriz Xəlilov küçəsində, beşmərtəbə deyilən ərazidə böyük karvansaray var imiş ki, o da xanımın adına hörmət əlaməti olaraq Xanım sarayı adlanırmış. Bakının ətrafında saray və karvansarayların nə qədər əzəmətli gözəl olmağına baxmayaraq qədim Bakı dedikdə ilk öncə İçəri Şəhər yada düşür. Ümumi ərazisi yarandığı gündən indiki dövrə kimi 21,5 hektar əhatə edir. Aparılan arxeoloji qazıntılar göstərir ki, əhalisinin artmasına baxmayaraq binalar köhnə evlərin üzərində inşa olunmuşdur[4].

Son dövrlər aparılan araşdırmalar bunu bir daha sübut edir. Yeni yaşayış evlərinin tikintisi ilə küçələr darlaşaraq keçilməz olurdu. Bəzi küçələr elə darlaşmışdıkı yanaşı iki nəfər belə keçə bilmirdi. “Bu isə qədim qala şəhərin darvazasından çıxarkən canlanan müasir kapitalist şəhərinin yaranması ilə nəticələndi. Elə bundan başlayaraq “ qala divarları içində ərazi İçəri Şəhər, xarici isə Bayır şəhər adlanmağa başladı. ” Beləliklə sürətli gedən inkişaf 1861-ci il Bayır şəhər Bakının mərkəzinə çevirdi. Müxtəlif ticarət və ictimai obyektlərin məscidləri İçəri Şəhərdə yerləşdiyindən Bayır şəhərdə əhali artdıqca bir-birinin ardınca ayrı-ayrı insanlar tərəfindən məscidlər və ticarət obyektləri tikilməyə başladı[3,4].

1920-ci ildə Bakıda Məhəmmədiyyə məscidi, Cümə məscidi, Hacı Cəbrayıl, Hüseyinqulu məscidi, Məmmədəli məscidi, Kərbəlayi məscidi, Əbdülhüseyin məscidi, Şah məscidi, Hacı Cavad məscidi, Məmmədyar məscidi, Seyidlər məscidi, Şirvanlı məscidi, Hacı İmaməli məscidi, Təzə Pir məscidi, Hacı Banu, Qasım bəy Bayır şəhərdə Bazar küçəsində Qasım bəy, Yaşıl günbəz, İttifaq bundan başqa Bakının ən qədim məscidi Sınıq Qala məscidi idi ki, cammat arasında Məhəmməd məscidi adı ilə tanınırdı. Beləliklə qeyd edə bilərik ki,öncəki dövrlərdə tikilən qalalar, saraylar müdafiə divarlarının yarandığı dövr Şirvanşahlar dövründə Əbu-Hacı Mənuçöhrün adı ilə bağlı olan

Şirvanşah dövrü idi. Bakı XII əsrdə Şirvanşah Əbu-Hacı Mənuçöhrün II-nin (1120-1149) dövründə ilk qala divarları meydana gəldi ki, bu da Şirvanşahlar sülaləsinin ikinci qalası idi. Məqalədə tarixə qısa ekskursiya edərək Azərbaycanın tarixi şəhərlərinin keçdiyi formalaşma və inkişaf mərhələləri haqqında məlumat verməkdir [3].

İçərişəhərin cənub-qərb hissəsini əhatə edən,daha sonra Şamaxı istiqamətində şəhərin şimal hissəsini bağlayan daş qala divarlarının ilk cərgəsinin tikintisinə XII əsrdə Qiz qalası rayonunda başlanıldı.Daha sonra divarlar relyef üzrə Şimal-qərb istiqamətində, Nikolayev küçəsinə paralel(hal-hazirda İstiqlal küçəsi) olaraq keçərək,müasir Azneft meydanı rayonunda bağlandı. Divarların cənub-qərbi və cənub-şərqi arasında sahil boyu tamamlayıcı hissə tikildi. Nəticə olaraq, şəhər divarları qapalı dairə formasında və möhkəm müdafiə sistemi yarandı. Şəhər divarları boyunca yarimdairəvi qüllə və istehkamlarla təchiz olunmuşdur [4].

Şəhər divarları ilə qala darvazalarının müdafiə sisteminə qəsrlə bir yerdə həmçinin donjor (əsas qüllə) da daxil olunmuşdu. Dəniz istiqamətində üç darvaza yönəlmişdi, onlardan biri-əsası "Qavanskiye" (Liman) adli darvaza idi. Donjorla birlikdə qəsrin müdafiəsi sistemində üstünlük təşkil edən vəziyyət halında idi və şəhəri şimal istiqamətindən qoruyurdu. Günümüzə qədər "İsmailiyyə" (hal-hazırda Azərbaycan EA binası) binasina bitişmiş olan qəsrin donjonu (XII-XIII) salamat vəziyyətdədir. Donjonun yuxarı hissəsi ilə qədimdə orijinal tacı təşkil edən merlonlar (qala bacaları arasında tökülmüş torpaq hissə) sistemi keçirdi [5]. Qala divarları əsrlər boyunca daima təmir olunur,yenidən qurulur,yenilənirdi. Qala divarlarının ikinci cərgəsi 1656-ci ildə memarliq üslubunda işlənmiş,hamar yonulmuş daşdan və qüllələrin ritmi ilə möhtəşəmcəsinə tikilmişdi. İkinci cərgə qala divarları birinci cərgədən xeyli aşağıda və təqribi olaraq,10-15 metr aralıda idi. Zülfüqar xanın əmri ilə Şamaxı darvazalarına üzbəüz olan qala divarlarının ikinci cərgəsinə epiqrafika yazıları və sifarişçinin titulu ilə bir yerdə hələ 1608-1609-cu illərdə yeni darvazalar tikirdi. Mühəndis- polkovnik Qarber 1730-cu ildə qala divarlarına beş istehkam tikib əlavə etdi.

Bakının quberniya mərkəzinə çevrilərək, qala olaraq əhəmiyyətini itirən zaman- 1859-cu ildən sonra, hakimiyyət təzə yaşayış evlərinin tikintisi üçün qala divarlarinin ikinci cərgəsinin sökülməsi üçün Ali Qafqaz rəhbərliyinə bir neçə müraciət edirdi. İkinci qala divarlarının sökülməsinə 1883-cü ildə icazə verildi və Zülfüqar xanın darvazalarının Şamaxı darvazaları yanında birinci qala divarlarının yerinə köçürüldü [6].

Zülfüqar xanın darvazaları Şamaxı darvazalarından yeddi metr aralıya köçürülmüşdür. Bu vaxt sonuncuların həcmi və rəsmi üsullari təkrar istifadə olunmuşdu,bu darvazalar Şah Abbas darvazaları adlandırıldı. Nəticə olaraq isə İçərişəhər və forştadt qoşa darvazalar şəklini alaraq,çox maraqlı kompozisiya və ya iki qüllə arasında "Qoşa qapı"əldə etdi.Bakının sürətlə inkişafı və İçərişəhər sakinlərinin artmasının forştadtla qarşılıqlı əlaqəsini Şamaxı darvazalarının artıq təmin edə bilməməsi, Bakı sakini olan Tağıyevin vəsaitləri hesabına planlanmışdır.Bazar küçəsinin mehvərində təzə darvazaların açılışını tələb etdi. Memarı A.Koşinski olan bu layihə Peterburqda təsdiqlənmədi, buna baxmayaraq elə həmin darvazalar quruldu. Bakının qala divarlarının ayrılmaz hissəsi olan darvazaların memarliq kompozisiya həlli memarlar üçün memarlığın yerli üslub xüsusiyyətlərinə müraciətinin uğurlu nəticəsi idi. İçərişəhərin cənub-qərb hissəsində yerləşmiş qədim Səlyan darvazalarından günümüzə heç bir şey qalmamışdır. Qapı yeri formasında yeniləri isə XIX əsrdə açılmışdır [5].

İçəri şəhərin qala divarlarının arxa tərəfində 1500 illik tarixi olan,səhifələri Bakımızın qiymətli mirvarisi sayılan, Abşeron memarlığının xüsusiyyətlərini özündə cəmləyən şəhərsalma və məkan memarliq poeması yaradılırdı. Mahiyyətcə, məhz bu küçə şəhərin başlıca özəyi olub, onun quruluşunun əsasını təşkil edirdi. Şəhərin məhəllələrini hər istiqamətlərdə birləşdirən ikinci dərəcədə olan küçələr çox dar və bəzən də dalanlarla başa çatan, fövqəladə baxımından isə əyri idilər. Məhz bunlarin hamısı qalanı daha da əsrlər ərzində yaradılmış nəhəng bir labirintə bənzəməsinə səbəb olurdu [7]. XIX əsrin ortalarında Bakıya gəlmiş rus tədqiqatçısı və səyyahı İ.Berezin Bakı qalasının küçələrini hətta belə təsəvvür etmişdir: "Onlar o qədər dar və dolaşıqdır ki,

bir ay Bakıda yaşayıb, bu və ya digər küçəyə daxil olanda, bilmirdim ondan çıxa biləcəyəm, ya yox".

Buna baxmayaraq,şəhərin inşasının belə xaotikliyi onun düşməndən müdafiə edirdi. Bundan əlavə isə həmçinin şəhərin küləyinin iliyə qədər işləyən zərbələrini biraz daha da olsa zəiflətmək üçün özünün danılmaz üstünlüklərinə malik idi. Orta əsr Bakısının şəhər quruluşunda Abşeron təbiət iqliminin az rol oynamamışdır. Qışda iliyə işləyən Bakı xəzrisinin yumşaldılmasına xidmət edən, həmçinin yayda əhatə etdiyi evlərin divarlarından düşən kölgələrin sayəsində , praktiki olaraq, günün bütün işıqlı vaxtı ərzində sərinlik yaranmasına əsas səbəb məhz küçələrin əyrixəttli planlaşdırılması idi [6].

Evlərinin arasında tut ağacı və ya bir-iki əncir,bir neçə qızılgül kolu kiçik həyətlər daxilində yetişirdi. Elə həmin həyətlərdə yetəri qədər mürəkkəb və bununla bərabər,mükəmməl kəhriz sistemi – qaya süxurlarının qalın laylarında çapılmış orta əsr yeraltı su kəmərləri vasitəsilə sakinləri su ilə təchiz edən quyular da olurdu. Sudan ümumi istifadə etmək üçünsə, İçərişəhərin ayrı-ayrı yerlərində yeraltı quyularla başa çatan yarı yeraltı tunelə oxşar ovdanlar inşa edilirdi. bunlardan əlavə artıq XV əsrdən başlayaraq, Bakı qalasında birləşdirilmiş, ayrı-ayrı keramika oradakı bütün evlərlə praktik olaraq elementlərindən düzəldilmiş çox möhtəşəm kanalizasiya sistemi var idi.

Şəhərdəki evlər bir və yaxud da ikimərtəbəli,üstündə isə kiçik tüstü kanallarının gümbəzlərinin ucaldığı yastı və qırdan hazirlanmış damların üstünlük təşkil etməsindən ibarət idi. Qalanın təpəli relyefinin yamaclar istiqamətində yavaş-yavaş yuxarı qalxan bu evlərin siluetləri hərdən burada, hərdən də orada məscid və hamamların iri həcmli minarələri və günbəzlərin nazik əyri xətləri ilə kəsişirdi. Xarici quruluşlarına görə müxtəlif cür olan memarlıq tikililərinin bu cürə uzlaşma əmələ gətirməsi feodal Bakının memarlıq obrazının mühüm elementi idi.

Bakının mənəvi həyatında həmin dövrdə din mövzusu kifayət qədər mühüm və əhəmiyyət kəsb edən yer tuturdu. Məhəllə məscidinin balaca həcmləri buna baxmayaraq, təkcə dini mərasimlərin keçirildiyi yer kimi xidmət göstərmir, həmçinin məhəllənin sakinləri üçün yığıncaq və görüş yeri, özünəməxsus klub kimi istifadə olunurdu. Məhz buna görə də, məhəllə məscidləri Bakı qalasının yaşayış evlərinin sırasına səpələnmişdi. Bakı da həmçinin,digər orta əsr Şərqinin bütün iri şəhərləri kimi şəhərlər üçün ənənəvi olan "ark" – "rabad", daha aydin desək, hökmdarın iqamətgahı və "İçərişəhər"in kiçik bir ərazisinin qala divarları zənciri və ona qovuşmuş geniş yaşayış sahələri ilə əhatələnmiş şəhərsalma strukturu üzrə inkişaf edirdi [7].

XIX əsrin ikinci yarısından etibarən,əksəriyyət Bakılılar ictimai-siyasi sistemin dəyişməsi və Bakının iqtisadi əhəmiyyətinin artması ilə əlaqədar olaraq, vahid şəhərsalma orqanizmində – forştadtda birləşən, irili-xırdalı yaşayış məskənlərinin bütöv bir sırasını əhatə edən, vahid Bayır şəhər mənasında birləşmiş ətraflarda yaşayırdı. Amma qalanın özündən bu və yaxud da digər dərəcədə aralı yerləşən bu yaşayış yerlərinin adları onların ərazi sərhədləri kimi silinməmişdir, şəhərin bir sıra müasir yaşayış rayonlarının– Yasamalın, Səbayılın, Əhmədlinin, Çəmbərəkəndin, Dərnəgülün və s. adlarına keçərək, bakılıların yaddaşında qalmışdır [5,7].

Yüksəkdə yerləşərək Hökmranlıq edən-Şirvanşahlar sarayı ansamblı. Onun binaları şəhərin ümumi planında və xarici görünüşündə üstünlük təşkil edərək xeyli fərqli idi. Azərbaycan memarlığının əsl şah əsəri elə bu saraydr. Azərbaycan memarlığında bu ansambl bütöv və yeni bir üslübun yaratmışmış,ay-ayri tikililərin yerin relyefi üzərində mahirliklə yerləşdirilməsi, formanın möhtəşəm həlli və yerli əhəng daşlarının dekorativ xüsisiyyətlərindən məharətli istifadəsi həmçinin də,daş üzərində gözəl oyması ilə diqqət çəkir.

XV-XVI əsrlərdə ansambl müxtəlif səviyyələrdə yerləşən üç kiçik həyətin ətrafında formalaşmişdi. O, "Divan-xana" (XV-ci əsr) sarayından,alim Seyid-Yəyha Bakuvinin (XV-ci əsr) mavzoyundan,orta həyətdə yerləşən, Key-Qubad (XVII-ci əsr)məscidindən, həmçinin Muradın (1584-cu il) darvazasindan ibarət idi. Aşağı həyətdə isə Saray məscidi (1441-ci il) və Şirvanşahlar sərdabəsi (1435-ci il) "Türbə" yerləşirdi. Biraz daha aşağı hissədə, hamamı su ilə təmin edən,möhtəşəm ovdanla birlikdə Böyük saray hamamı (XV-ci əsr) yerləşirdi. Sarayın möhtəşəm binasi qapalı saray məkanında üstünlük təşkil edən mövqesini tutur. Burada ikimərtəbəli bina qədim

bünövrə üzərində qurulmuşdur və planın mürəkkəb konfiqurasiyasi ilə qeyd edilmişdir. Yuxarı mərtəbədə aşağı mərtəbənin planını təkrar olunur.mərkəzi səkkizüzlü zal və ona birləşən eyni formalı "bölüşdürücü vestbül" ətrafinda qruplaşmış "enderuna" və "biruna" üslüblu qabaq və yaşayış otaqlarının təşkiledici elementləri idilər. Bu mərtəbələrin otaqları çatma şəkilli tağ tavanlarla,portalın arasındaı səkkizüzlü zal isə-günbəzlə örtülmüşdür. Sarayın bərpası layihəsi 1977-ci memarları- A.B.Salamzadə, E.İ.Kanukov və E.V.Avalov tərəfindən tərtib olunsa da,binanın memarlıq mahiyyətinə zidd hesab olunan lazımsız təmtəraq və birtərəfliliyi səbəbiylə reallaşmağı qəbul olunmadı. Sarayın şimal-qərbinə,hündür özül (stilobat) üzərində rotondadan (girdə formali kiçik bina) ibarət olan Divanxana bitişir. Səkkizüzlü zal beş cəhətləri ilə arkadalardan ibarət açıq qaleriyaya yönəlmişdir.zalın üstündən ikiqat örtülmə ilə çatma konturlu yonulmuş daş gümbəz irəli çıxır. Yonulan arkadalar qaleriyasının hamar damı üstündən irəli çixmaqla gümbəzin mahiyyəti daha da artir. Qərb arkadada isə rotonda olduqca dinamik ifadə edilmiş möhtəşəm portalla tamamlanır. Giriş qapısının üzərindəki timpanlar (binanın heykəllərlə və s. ilə bəzədilən qabaq hissə) səthi daş üzərindəki əzəmətli naxışlarla örtülmüşdür [7].

Burada parlaq şəkildə ifadə olunmuş memarlıq kütlələrinin tektoriyasi,konstruktiv formaların möhtəşəm həlli ilə qeyd olunub,binanın geniş miqyasi bütün memarlıq detalları ilə uyğunlaşdırılmışdır.orderin sütünu özünəməxsus olan fərdi səciyyə daşıyır və rotondanın ümumi kompozisiyasında,özlüyündə əhəmiyyətli olan həlqədir. Təmiz yonulan daşlardan döşənən bütün interyer,qeyri-adi memarlıq sisteminin həcmli plastikasını və materialların yüksək dərəcədə hiss olunmasını meydana çıxarır. Azərbaycan memarlığında yeni istiqamətdə üslubun yaranmasina gətirib çıxarmış həcmli-məkan həllinin inkişafinda yeni mərhələnin əsasını məhz bu ansambl qoymuşdur.

Şirvanşah Xəlilulla I-in sarayında alim-münəccim Seyid Yəhya Bakuvinin Məqbərəsi (XV əsr),özü ilə həcmdə piramida kimi alaçiq kimi tamamlanmiş,planda da səkkizüzlü formanı təmsil edir. Məqbərənin daxili yeraltı sərdabəya və uzadılmış formada yuxarı kameraya bölünür. Yuxarı kameranın səkkizüzlü fiquru, kürə formali gümbəzlə tamamlanmış xırda künc tromplarla barabana çevrilir.Günbəzin dairəsi kainatın sonsuzluğunun obrazını yaradan bəzənmiş naxışla örtülmüşdür. Şəbəkə üslubunda daş məhəccərlə örtülmüş və dünya cəhətlərinə yönəlmiş kiçik pəncərə yerləri vasitəsiylə məqbərənin yuxarı kamerası işiqlandırılır. Məqbərənin divarlarina rəngin və hündürlüyün əvəzlənməsi nəticəsində təmiz yonulmuş daşla üz çəkilmişdir. Bu məqbərə ayrılmaz sürətdə Key-Qubadə məscidinin strukturuna daxildir və onlar birlikdə vahid bütövlük təşkil edir.

Key-Qubad məscidi, XVII əsrdə ənənəvi olaraq, ilkin plana əsasən daha qədim bünövrələr üzərində qurulmuşdur. Günbəzinin söykəndiyi iki cüt sütunların vasitəsilə məscidin düzbucaqlı planına vestibüllə birgə portal bitişirdi. Zalin künclərini formalaşdiran sütunlar tağtavanla örtülmüş kiçik qapalı məkanlara çevrilmişdir. Bunun nəticəsində interyer xaçşəkilli- günbəz formasını almışdır. Sütunlar özünəməxsus orderin sayəsində fərdi səciyyə əldə etdilər. Günbəzlə örtülən xidməti otaqlar verstübün yan tərəflərində yerləşir. Zal isə xaçşəkilli günbəz formasına malikdir [6,7].

Bura memar Əlinin yüksək məharəti nəticəsində həyata keçirilmiş, bədii üslub üçün səciyyəvi olan memarlıq üsullarını ardıcıllıqla ortaya çıxaran tarixi memarlıq nümunəsidir. Damcı formasinda olan portalin medalyonlari özünəməxsus ornamentli naxişla işlənmişdir. Memar- inşaatçi- usta Əlinin adi ilə güzgü kimi təkrarlanan yazilar ora möhtəşəmliklə hörülərək həkk olunmuşdur.tikilmə tarixi giriş qapisinin üzərində bir neçə sətirlik yazı ilə əks olunmuşdur: "Allahın peyğəmbərinin adaşı, dinin müdafiəçisi, ən böyük sultan və dahi şirvanşah Xəlilulla,- qoy Allah onun hökmranliğını və hakimiyyətini əbədi etsin,-bu işiqlı sərdabəni (məqbərə) öz anasi və oğlu üçün, - Allah onlara rəhm eləsin,-839-cu ildə h.q.(1435-1436-ci illər) tikməyi əmr etdi".

Aşağı həyətdə sərdabənin yaninda yerləşən Saray Məscidi, ucu yüngülvarı sivrilmiş iki günbəzlə tamamlanmış prizmalı həcminin sabitliyi, binanın şimal-şərq küncündə yüksələn, hündür minarə ilə kölgələndirilmişdir. Məscid qadınlar üçün hazırlanmış kiçik zaldan, bir neçə xidməti otaqdan və əsas olaraq, böyük ibadətgah zalından ibarətdir. Məscidin həcmli- məkan kompozisiyası,

minarənin dinamik şaquli üzərindən sanki daş günbəzlərin formaları ilə təəccüblü həmahənglik ilə birlikdə müəyyən olunur,azançının üzərində durduğu eyvanın stalaktit qurşağı ilə tamamlanır. Minarə qurşağın altinda yazıyla işarələnmişdir. Yazıda bildirilir: ”Ən uca və ən qüdrətli Allaha (xeyir-dua) alqış olsun və seçilmiş Məhəmmədə dua.daha sonra ən böyük Sultan Xəlilulla bu minarəni açmağı əmr etdi. Qoy Allah onun hökmranlıq etdiyi günlərini və səltənətini yüksəkliklərə qaldırsın. Hicrinin səkkiz yüz qırx beşinci ili (1441-ci il).”

Saray hamamı aşağı həyətdən qərb tərəfdə və sonuncudan ən aşağıda yerləşmişdir,yetəri qədər iri ölçülüdür. Memarlıq planlaşmasi cəhətdən ona bənzər tikililərin klassik növünü təmsil edir. Hamam iki bölmədən: soyunma yeri və mərkəzdə səkkizüzlü zallarla bir yerdə çimmə yerindən,bütövlükdə,künc otaqlari da daxil olmaqla xaçşəkilli- çimmə sistemindən ibarətdir. Çimmə bölgəsi, otaqların döşəməsini və taxtalarını külxanadan (odluq kamera) gələn qaynar hava vasitəsilə,istilik ötürən kanallar sistemi ilə qızdırırdı. Hazırda, demək olar ki, torpaq qalıqlarından təmizlənən hamam, bütünlüklə açılmışdır. Torpağın üzərində yeralti su anbarına girişən ovdanin (XV əsr) yalnız bünövrəsi salamat qalib. Düzbucaqlı hayişə çatma şəkilli qapı yeri, cox böyük ölçülərdə kameraya gətirib çıxarır.

Rəvayətlərə və əfsanələrə bürünmüş “Qız Qalasi” İslam dininə qədər, Sasanilər dövrünə (VI-VII əsrlər) aiddir. Qız qalasının təyinatı indiyə kimi mübahisəli olaraq qalır:müdafiə tikilisi,atəşpərəst məbədi,qədim zamanın rəsədxanası və s. Bu qala, Bakı memarlığında,eləcə də şəhərin ümumi görünüşündə xüsusi yer tutur. Qalanın slindrik formasi sahil qayasının üstündə yerləşir. Onu da qeyd etmək lazımdır ki, XIX əsrin ikinci yarisinda qalanın divarlarını Xəzərin gur suları əhatə edirdi [8].

Hündürlüyü otuz metr olan və bünövrəsindəki divarların qalınlığı beş metr,yuxarı hissəsində isə dörd metr olan daşdan tikilən Qız qalası daxili məkan olaraq səkkiz yarusdan ibarətdir. İkinci mərtəbədən axrinci mərtəbəyə kimi əlaqəli divarın qalınlığında olan vintşəkilli pilləkənlarla reallaşdırılır. Mərtəbələrdə öz növbəsində yasti daş günbəzlərlə örtülmüşdür. Qalanın silindrik formali həcmi şərq tərəfdən düz zirvəyə qədər ucalan,planda isə doqquzluğu formalaşdıran iri çıxıntısı ilə qəlizləşdirilib. Qüllənin təfsiri, üçünçü yarusdan başlayaraq onun səthinin qabırğa formali bir daş parçası ilə nazik üfüqi qurşaqlarla bölünməsi, onun formaca həllinin möhtəşəmliyi dünyada analoqu olmamağından xəbər verir.

“Böyük karvansaray” XV-XVI əsrlər ərzində inşa edilmişdir. Planında kvadratşəkilli,daxilində isə kəsişmiş künclərlə düzbucaqlı geniş həyətə sahibdir. Dənizkənari hissə və ticarət küçələrini birləşdirən otaqlar qrupu ilə birlikdə iki tərəfli çıxışı olan iki girişə malikdir. Formaca mürəkkəb olmayan pərvaz binanın perimetri boyunca binanın daş fasadlarını birləşdirir. Şəhərsalma sisteminin ticarət magistralında karvansaray mühim yer tutur və onun tikilişində əsas aparıcı yer tutur. İkimərtəbəli karvansara isə XV-ci əsrdə inşa olunub və Şirvanşah Xəlilullah I tərəfindən inşa olunaraq,istifadəsi üçün Qasim Bəy və onun varislərinə verilmişdir. Karvansara iki tərəfli çıxışı olan iki girişə malikdir: dəniz kənarına və ticarət magistralına.

Planda formasına görə kvadratşəkilli olan daxili məkanda arxasında otaqlar yerləşmiş,uzunluğu boyunca eyvanlarla əhatələnmiş,səkkizüzlü formasında olan həyətdən ibarətdir.divar qalınlığında olan pilləkən meydançası giriş hissədə düzəldilib. seksiyaların hər mərtəbədə dəqiq yastı düzbucaqlı çərçivələrə bölünməsi daş formaları memarlıq üsüllarının ən möhtəşəm cəhətini əks etdirir. Eyvanların və otaqların tavanları-çatma formalı, küncdə yerləşən otaqların isə kiçik gümbəzlərlə verilmişdir. Karvansaraya girişlər binanin bütün hündürlüyü boyunca irəli çıxan piştaxlarla və birinci mərtəbə səviyyəsində dərin taxcalarla inşa olunmuşdur. Karvansaray cənub-şərq tərəfdən şəhərin divarları sistemində onun həmçinin, müdafiə səciyyəsini nəzərə çatdıran künclərdə yerləşən qüllələrlə bərkidilib [9].

**Nəticə.** Araşdırmalara əsaslanaraq qeyd edə bilərəm ki, ildən-ilə abadlaşan yenilənən Bakı memarlığının tarixi qədim fəhlə qəsəbələrinin salınması ilə bağlıdır. Abşeronda salınan bu cür qəsəbələri, memarlığın ilk nümunəsi saymaq olar. Bakının tarixi planlaşma rayonunun şimal körfəzi yüksəkliklərində inşa olunan tikililər öz forma, rəng və bədii estetik tərtibatının bir– birinə bağlılığı

memarlıqda əksini tapmışdır. Belə ki, mühiti bədii cəhətdən zənginləşdirən və tikinti arası məkanlara məzmunca dolğunluq verən landşaft memarlığını Bakı şəhəri mühitində vurğulamaq vacib olardı. Salınan park, meydan bundan başqa inşa olunan yaşayış və biznes mərkəzləri, əyləncə və ticarət mərkəzləri yaşam səviyyəsini qaldırmaqla yanaşı memarlığın sürətli inkişafına yönəlmişdir. Bundan başqa qeyd etmək lazımdır ki, Bakı memarlığının vizual və estetik görkəminin qabardılmasında informativ xüsusiyyətlər, landşaft memarlığı, işıqlandırılma və s. şəhərə xüsusi bir görkəm verir.

**Ədəbiyyat**

1. Buchanan.Trafficin Town. London, 1963
2. Əliyev N.Ə., Hüseynov E.F., Yusufova N.O., Şixlinskaya Z.A., Kərimli Y. S. Bina və qurğuların tipologiyası. Ali təhsil müəssisələri üçün dərslik. Bakı, 2014
3. https://az.wikipedia.org
4. http://www.niim.az
5. John Macsai, Джон Максаи. Housing. John Wiley & Sons. New York, 1976/Проектирование жилых зданий. Стройиздат. Москва, 1979
6. http://housing.totalarch.com/node/
7. Kərimli Y.S., Həsənov T.G.. Rayon və şəhərlərin planlaşdırılması. Parkbauten- Гаражи. Проектирование и строительство. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2014
8. Ененкова В. Г. Защита окружающей среды при транспортных процессах. Москва, 1984
9. Владимиров В.В., Расторгуев О.С., Шафран Л. С. Город и его общественный центр. 2016

**References**

1. Buchanan.Trafficin Town. London, 1963
2. Əliyev N.Ə., Hüseynov E.F., Yusufova N.O., Şixlinskaya Z.A., Kərimli Y. S. Bina və qurğuların tipologiyası. Ali təhsil müəssisələri üçün dərslik, Bakı, 2014
3. https://az.wikipedia.org
4. http://www.niim.az
5. John Macsai, Dzhon Maksai.Istochnik:"Housing". John Wiley & Sons. New York. 1976 / «Proektirovanie zhilyh zdanij». Strojizdat. Moskva. 1979
6. http://housing.totalarch.com/node/
7. Parkbauten- Garazhi.Proektirovanie i stroitel'stvo. Y.S. Kərimli, T.G.Həsənov. Rayon və şəhərlərin planlaşdırılması. Ali məktəblər üçün dərs vəsaiti. Bakı 2014
8. Enenkova V. G. Zashchita okruzhayushchej sredy pri transportnyh processah. Moskva 1984
9. Vladimirov V.V., Rastorguev.O.S., SHafran L. S. Gorod i ego obshchestvennyj centr, 2016

Redaksiyaya daxil olma/Received 11.11.2019
Çapa qəbul olunma/Accepted for publication 16.12.2019